# İLK RƏNGLİ BƏDİİ FİLMİMİZ

**Üzeyir bəy Hacıbəyovun «O olmasın, bu olsun» musiqili komediyası əsasında kinorejissor Hüseyn Seyidzadənin çəkdiyi eyniadlı filmdə (ssenari müəllifi Sabit Rəhman, 1956) hadisələr ilkin ədəbi materialın dramaturji strukturunu təkrarlayır. Milli kinomuzun tarixindəki bu İlk rəngli filmin əvvəlində qadın xorunun sədaları altında «Köhnə Bakı» maketindən çəkiliş pavilyonuna keçid edilərək personajları təqdimatında Məşədi İbadın sifətinə puldan, qızıldan, Sərvərə isə kitabdan keçid edilməsi obrazlı əşyaları da, ziddiyyətin tərəflərinə çevirir.**

Sərvərin gimnaziya dostlarının arasındakı diktor mətninin müəllifinin uzun-uzadı Vaqifin «Bəri bax» rədifli şeirini söyləməsi hadisələri ləngitdiyindən, liberettodakı musiqi nömrələrinin təsiri ilə növbələşən təsvir planları uzandığından ifadəliliyin qorunması çətinləşir. Digər tərəfdən Gülnaz və Sərvər kimi aparıcı personajların aktyorluq imkanları nümayiş etdirmədən sadəcə naturaçıya çevrilməklə hadisəlilik kontekstindən kənarda qalmaları ekrandakı boşluğu qabardır.

Müflisləşmiş Rüstəm bəyin gözəl qızı Gülnazı əlli yaşlı tacir Məşədi İbadın pulu hesabına almaq istəyi və qızın ziyalı Sərvəri sevməsi personajlar arasındakı ziddiyyəti təqdim edir. Görkəmli tədqiqatçı Y.Qarayev əsəri təhlil edərək bu qərara gəlir: «Dramaturq müstəsna bir həssaslıqla göstərir ki, alver və tacir əxlaqi ideya, məslək sahəsinə də nüfuz edib, «baqqal–intelligent»in müasir tipi artıq hər şeyi alıb–satır: qadından (Gülnazdan) tutmuş, ana dilinə qədər xalqın taleyinə və qəzetəyə qədər. Belə ki, müftə pul müftəxor ziyalıya hər şeyi, ideyanı da əvəz edir. Peşələri müxtəlif olsa da, onun pyeslərində bu ziyalılar hamısı məhz eyni rolda, dəllal və baqqal rolunda çıxış edirlər: Məşədiyə iş düzəldir, parça və bez tacirinə şərəf və mənəviyyat tacirliyini də öyrədirlər. Məşədi İbadın «O olmasın, bu olsun» ifadəsi əslində, onun özündən daha çox, həmin ziyalıların sosial psixologiyasının ifadəsidir: bu sevgi olmasın, satın alınan sevgi olsun; ürəkdolu eşq olmasın, ətək dolu pul olsun; ana dili olmasın, yad dili olsun; vətəndaşlıq olmasın, mənəviyyatsızlıq olsun, mənə nə?» (Qarayev.Y.V. Teatr həyatda və səhnədə. B.1996. s.41.) Bazardakı atışma səhnəsində; güllələnən küpədən başın çıxması, iri plandakı dəvənin ağzını açıb böyürməsi, rus qadınının: «boje moy», əmmaməli kişinin: «ay allah» deməsi, qoçunun qadın çadrasına bürünməsi, girdiyi arvad hamamından atılan vedrələrin yağışına düşməsi isə kinematoqrafik təqdimatı önə çəkməklə attraksionların montajını davam etdirir. Xan Şuşinskinin oxuduğu «Şahnaz» muğamını dinləyənlərdən; əlini qulağına tutan, butulkasını qucaqlayan, yanındakının gəmirdiyi sümüyü əlindən alıb süfrəyə atan tipajların müxtəlifliyi epizodun uğurlu kinematoqrafik həllini yaradır. Qonaqlıqdakı qalmaqalda atılan başmaq çıl-çırağı söndürdükdən sonra başlara butulka, qarpız, döşəkcə, yumruq vurulması, şampan şərabının tökülməsi, yumurta çırpılması, qulağın dişlənməsi, atılan daşın otağa düşməsi attraksionların montajını yenidən təkrarlayır. «Molla Nəsrəddin» redaksiyasında Əzim Əzimzadənin karikaturaları, M.Ə.Sabirin «Qoyma gəldi» şeirinin təqdimatı, C.Məmmədquluzadənin, H.Ərəblinskinin, Ə.Haqverdiyevin tövsiyələri maarifçiliyi önə çəksə də, ilkin ədəbi materiala əlavə olunan bu personajlar əsas dramaturji hadisədən kənarda qalırlar.







Yarıçılpaq kişilərin hovuz ətrafında rəqsi, Məşədi İbadın başının, bədəninin sabun köpüyündə itməsi, su şırnağında safa çıxması, hambalın arıq sinəsinə kisə çəkməsi hamam epizodunun kinematoqrafiq həllini verir. Ac hariflərin yuyuna-yuyuna kələk qurmaları, bəyin musiqi və çırtıq altında rəqs edə-edə pul yığması, qoçunun tapança ilə qoz sındırması, şövqlə əl çalan hambalın qaş-göz oynatması, qadın məclisindəki kök rəqqasənin (M.Kələntərli) əndamını oynatması aktyorları naturaçıya çevirməklə semantikanı zənginləşdirir. Dostlarının məsləhətilə kələk quraraq, toy günü Sərvərin gəlin paltarında Məşədi İbadın evinə gəlməsi və onu qorxuzaraq qulluqçu Sənəmlə evlənməyə təhrik etməsi əsas dramaturji hadisənin ziddiyyətini klassik şəkildə həll edir.

Dramaturq, bəstəkar, publisist kimi xalqın mənəvi tələbatını, təfəkkür tərzini həssaslıqla duyan Üzeyir bəy Hacıbəyovun «O olmasın, bu olsun» kimi teatr dramaturgiyasının prinsiplərinə arxalanan əsərlərinin ekranlaşdırılması əslində milli mədəniyyət hadisəsidir.

**A.DADAŞOV,**
*filologiya elmləri doktoru, professor*